

**Çingiz ƏLİOĞLU**

# *Portret cizgiləri*

*Elçinə*

*Mənim ərim dəlidir*
*heç görün sözdür sən Allah*
*dəlixanadan dəli qaçıb*
*çox elə ağ günə çıxıb o bədbəxt*
*guya ki, bu dünya büsbütün tamam*
*dəli yığıncağı deyilmiş balam*
*indi biz neyləyək*
*külli əhli dəliyə*
*ölüm hökmü oxutduraq*
*of yandı içim dolça ver içim*
*səninki bir cüt ağlar gözdür Elçin*
*ağrıyırsan için-için*
*ofsanadı bu dünya gümüş əfsanə*
*həyat bir görüşün tarixçəsidir*
*hər gecə dumduru röya gölünə*
*dipdiri gözlücə ölü batıram*
*uşaqtək tavlayıb özüm-özümü*
*bülbülün nağılıyla mən baş qatıram.*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 10.